# Azərbaycan Respublikası Prezidentinin Fərmanları

- Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(11 fevral 2004-cü il)*

- Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nda və bəzi sərəncamlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(6 fevral 2007-ci il)*

- Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(6 mart 2007-ci il)*

- Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nda və bəzi sərəncamlarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(6 fevral 2007-ci il)*

- Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı *(6 mart 2007-ci il)*

**Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı
Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin
Fərmanı**

Azərbaycan Respublikasında son on ildə həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində ölkədə makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.

Bu gün özünün sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında həlli vacib məsələlərdən biri regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaqdan ibarətdir. Bu istiqamətlərdə tədbirlərin həyata keçirilməsi regionların iqtisadi inkişafında mövcud olan kəskin fərqin aradan qaldırılmasını və regional tarazlığın əldə olunmasını təmin etməklə yanaşı onların iqtisadi gücünü artırar və sosial problemlərin həllini sürətləndirər.

Azərbaycan Respublikasında regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti, aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları Dövlət Proqramının icrasını təmin edən zəruri tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi:

- Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi və regionlara investisiyaların cəlb edilməsi məqsədilə beynəlxalq maliyyə institutları, xarici ölkələrin dövlət orqanları və iş adamları ilə müvafiq danışıqlar aparsın;
- Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və onun icrasının gedişi barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 fevral 2004-cü il
№ 24

**Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nda və bəzi sərəncamlarında dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin
Fərmanı**

"Azərbaycan Respublikasının Abşeron rayonunun Xırdalan qəsəbəsinə şəhər statusunun verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 62, 2005-ci il, № 2, maddə 69, 2006-cı il, № 7, maddə 590, № 9, maddə 743) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nın 3-cü bölməsinin 3.2.1.13-cü yarımbəndinin "Tədbirin adı" sütununda "Xırdalan qəsəbəsinin" sözləri "Xırdalan şəhərinin" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 iyul tarixli 851 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 7, maddə 462) ilə təsdiq edilmiş "Tikinti kompleksində yaradılan səhmdar cəmiyyətlərin tərkibinə daxil olan müəssisə və təşkilatların Siyahısı"nın «Azərnəqliyyatyoltikinti» Səhmdar Cəmiyyəti" bölməsinin 2-ci, 3-cü, 8-ci bəndlərində və «Azərkəndtikinti» Səhmdar Cəmiyyəti" bölməsinin yaradılması haqqında 1-ci, 3-cü, 7-ci və 10-cu bəndlərində "Xırdalan qəsəbəsi" sözləri "Xırdalan şəhəri" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 8 fevral tarixli 1152 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 2, maddə 107; 2004-cü il, № 12, maddə 1005; 2006-cı il, № 9, maddə 743) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram"ın "Toxum tədarükü" bölməsində "Xırdalan qəsəbəsi" sözləri "Xırdalan şəhəri" sözləri ilə əvəz edilsin.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 fevral 2007-ci il.

# Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Müasir dövrdə bir sıra ölkələrdə mövcud sosial-iqtisadi problemlərin həllinə, elmi-texniki nailiyyətlərdən daha geniş və səmərəli istifadəyə və bu ölkələrin beynəlxalq əmək bölgüsündə daha fəal iştirakına xüsusi iqtisadi zonalar kimi iqtisadi fəaliyyətin yeni formasının tətbiqi vasitəsilə nail olunur. Beynəlxalq təcrübə göstərir ki, xüsusi iqtisadi zonalar ayrı-ayrı ərazilərin və bütövlükdə ölkələrin iqtisadi inkişafına güclü təsir imkanına malikdir.

Azərbaycan Respublikasında son illər həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bazar iqtisadiyyatının bərqərar olması, ölkənin davamlı sosial-iqtisadi inkişafı və beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiyası üçün münbit şərait yaranmışdır. Hazırda Azərbaycan Respublikası sosial-iqtisadi inkişafın yeni mərhələsindədir. Bununla əlaqədar ölkədə qəbul edilmiş strateji proqramların və layihələrin həyata keçirilməsində, prioritet iqtisadi və sosial vəzifələrin həllində xüsusi iqtisadi zonalar mühüm rol oynaya bilər. Eyni zamanda, belə zonaların yaradılması Azərbaycanın əlverişli coğrafi və nəqliyyat mövqeyinin üstünlüklərindən istifadə etməklə xarici iqtisadi əlaqələrin daha da genişlənməsinə təkan verə bilər.

Ölkə iqtisadiyyatının və onun ayrı-ayrı regionlarının inkişafı üçün əlverişli şəraitin yaradılması, investisiyaların təşviqi və prioritet sahələrə yönəldilməsi, yeni iş yerlərinin açılması, müasir idarəetmə təcrübəsinin istifadə edilməsi, rəqabət qabiliyyətli mal və xidmətlərin təqdim edilməsi kimi məsələlərin həllinə nail olmaq məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması məqsədəuyğun hesab edilsin.

2. Müəyyən edilsin ki, ölkədə xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyəti ilə əlaqədar dövlət siyasəti Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən həyata keçirilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

3.1. "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə birgə xüsusi iqtisadi zonaların yaradılmasının prioritet istiqamətlərinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Müvafiq xüsusi iqtisadi zonalar barədə əsasnamə layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. xüsusi iqtisadi zonalarda güzəştli vergi və gömrük rejimi, valyuta tənzimlənməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.5. xüsusi iqtisadi zonaların hüdudlarında gömrük nəzarətinin, gömrük məntəqələrinin fəaliyyətinin, malların sənədləşdirilməsinin, nəqliyyat vasitələrinin və fiziki şəxslərin buraxılma rejiminin sadələşdirilmiş qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2007-ci il.

**Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nda və bəzi sərəncamlarında dəyişikliklər edilməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin**
**Fərmanı**

"Azərbaycan Respublikasının Abşeron rayonunun Xırdalan qəsəbəsinə şəhər statusunun verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 62, 2005-ci il, № 2, maddə 69, 2006-cı il, № 7, maddə 590, № 9, maddə 743) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nın 3-cü bölməsinin 3.2.1.13-cü yarımbəndinin "Tədbirin adı" sütununda "Xırdalan qəsəbəsinin" sözləri "Xırdalan şəhərinin" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 iyul tarixli 851 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 7, maddə 462) ilə təsdiq edilmiş "Tikinti kompleksində yaradılan səhmdar cəmiyyətlərin tərkibinə daxil olan müəssisə və təşkilatların Siyahısı"nın «Azərnəqliyyatyoltikinti» Səhmdar Cəmiyyəti" bölməsinin 2-ci, 3-cü, 8-ci bəndlərində və «Azərkəndtikinti» Səhmdar Cəmiyyəti" bölməsinin yaradılması haqqında 1-ci, 3-cü, 7-ci və 10-cu bəndlərində "Xırdalan qəsəbəsi" sözləri "Xırdalan şəhəri" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 8 fevral tarixli 1152 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 2, maddə 107; 2004-cü il, № 12, maddə 1005; 2006-cı il, № 9, maddə 743) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram"ın "Toxum tədarükü" bölməsində "Xırdalan qəsəbəsi" sözləri "Xırdalan şəhəri" sözləri ilə əvəz edilsin.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 fevral 2007-ci il.

**Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**
**Fərmanı**

Müasir dövrdə bir sıra ölkələrdə mövcud sosial-iqtisadi problemlərin həllinə, elmi-texniki nailiyyətlərdən daha geniş və səmərəli istifadəyə və bu ölkələrin beynəlxalq əmək bölgüsündə daha fəal iştirakına xüsusi iqtisadi zonalar kimi iqtisadi fəaliyyətin yeni formasının tətbiqi vasitəsilə nail olunur. Beynəlxalq təcrübə göstərir ki, xüsusi iqtisadi zonalar ayrı-ayrı ərazilərin və bütövlükdə ölkələrin iqtisadi inkişafına güclü təsir imkanına malikdir.

Azərbaycan Respublikasında son illər həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bazar iqtisadiyyatının bərqərar olması, ölkənin davamlı sosial-iqtisadi inkişafı və beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiyası üçün münbit şərait yaranmışdır. Hazırda Azərbaycan Respublikası sosial-iqtisadi inkişafın yeni mərhələsindədir. Bununla əlaqədar ölkədə qəbul edilmiş strateji proqramların və layihələrin həyata keçirilməsində, prioritet iqtisadi və sosial vəzifələrin həllində xüsusi iqtisadi zonalar mühüm rol oynaya bilər. Eyni zamanda, belə zonaların yaradılması Azərbaycanın əlverişli coğrafi və nəqliyyat mövqeyinin üstünlüklərindən istifadə etməklə xarici iqtisadi əlaqələrin daha da genişlənməsinə təkan verə bilər.

Ölkə iqtisadiyyatının və onun ayrı-ayrı regionlarının inkişafı üçün əlverişli şəraitin yaradılması, investisiyaların təşviqi və prioritet sahələrə yönəldilməsi, yeni iş yerlərinin açılması, müasir idarəetmə təcrübəsinin istifadə edilməsi, rəqabət qabiliyyətli mal və xidmətlərin təqdim edilməsi kimi məsələlərin həllinə nail olmaq məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması məqsədəuyğun hesab edilsin.

2. Müəyyən edilsin ki, ölkədə xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyəti ilə əlaqədar dövlət siyasəti Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən həyata keçirilir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

3.1. "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi ilə birgə xüsusi iqtisadi zonaların yaradılmasının prioritet istiqamətlərinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Müvafiq xüsusi iqtisadi zonalar barədə əsasnamə layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. xüsusi iqtisadi zonalarda güzəştli vergi və gömrük rejimi, valyuta tənzimlənməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.5. xüsusi iqtisadi zonaların hüdudlarında gömrük nəzarətinin, gömrük məntəqələrinin fəaliyyətinin, malların sənədləşdirilməsinin, nəqliyyat vasitələrinin və fiziki şəxslərin buraxılma rejiminin sadələşdirilmiş qaydalarının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2007-ci il.